https://doi.org/10.59849/3006-1318.2025.2.64
UOT 634.634.8.631.3

*Z.M.Abbasov, C.Ə.Məmmədov, M.H.Cəfərov, R.Q.Əliyeva*
*AR Kənd Təsərrüfatı Nazirliyi*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Gəncə ş., Ozan küç., 205*
*E-mail: ziyad.abbasov-gence@mail.ru*
*mamedov.camaladdin@gmail.com*
*aliyeva.reqsane0@mail.ru*

# AZƏRBAYCANDA ÜZÜM İSTEHSALININ VƏZİYYƏTİ: ŞƏMKİR RAYONU "ŞƏRQ ULDUZU" ŞİRKƏTİNİN ÜZÜM BAĞLARINDA APARILMIŞ ARAŞDIRMALARIN NƏTİCƏLƏRİ

*Məqalədə Azərbaycanın ayrı-ayrı iqtisadi rayonlarında son illərdə üzüm bağlarının əkin sahələri, məhsul istehsalı, məhsuldarlığı 2003-cü illə müqayisəli təhlili, 20 il ərzində onların yığımının və məhsuldarlığının artması verilmişdir.*

*İqtisadi rayonlar içərisindən əkin sahəsi, məhsul istehsalı, məhsuldarlığı daha çox olan 4 iqtisadi rayon göstərilmişdir.*

*Məqalədə bağlarda istifadə edilən texnikadan en götürümü nəzərə alınmaqla daha əlverişli traktorların istifadəsindən, istifadə ediləcək müxtəlif materiallardan hazırlanmış dirəklərdən, onların bastırılması, ara məsafəsi, tarımlığın təmin edilməsi, sinkli məftillərdən istifadəsi, məsafənin bitkinin hündürlüyündən aşlı olaraq müxtəlif sayda olması və məsafələrinin ölçüləri göstərilir.*

*Şəmkir rayonunun "Şərq Ulduzu" özəl şirkəti tərəfindən yaradılmış üzüm bağlarının vəziyyəti, bağın becərilməsində istifadə edilən texnikanın işindən, bağların məhsuldarlığının artırılmsasına təsir edən səbəblərin araşdırılıb aradan qaldırılması üsullarından bəhs edir. Texnikanın köməkliyi ilə alaq otlarına qarşı mübarizə tədbirlərindən məlumat verilir.*

*Açar sözlər:* bağlar, materiallar, traktorlar, dirəklər, sinkli məftillər, üzüm bağları, texnika, məhsuldarlıq, işçi orqanları, alaq otları

## *Giriş*

Azərbaycan şəraitində başqa kənd təsərrüfatı məhsullarına nisbətən üzüm istehsalı iqtisadi cəhətdən daha əlverişlidir. Bu sahənin inkişafı üçün kompleks tədbirlər görülmədiyindən onun inkişafı lazımı səviyyədə olunmamışdır. Üzüm məhsulu insanların qida məhsullarına olan tələbatın ödənilməsində xüsusi yeri vardır. Üzümdən təzə və qurumuş halda, müxtəlif spirtli içkilərin və şirələrin alınmasında istifadə edilir. Təzə halda üzüm şəkər və vitaminlərlə zəngin yeyinti məhsuludur. Eyni zamanda şərabçılıq üçün xammaldır. Azərbaycanda çox sayda üzüm növləri yetişdirilir. Bunlardan Qara şanı, Bayanşirə, Mədrəsə, Təbrizi və s. bunlarla yanaşı digər ölkələrdən gətirilmiş növlərdən ölkəmizdə yetişdirir, istifadə edilir və artırırlar. Bunlardan "Rkasiteli", "Tovkveri", "Muskat", "Berdo", "Pino", Kaberne", "Jzabella" və s. [4].

Üzüm bitkisinin yetişdirilməsində ətraf mühit amilləri içərisində iqlim amilləri - işıq, temperatur, nəmlik və atmosfer əsas rol oynayır.

Ölkəmizdə üzüm istehsalının daha da artırılması istiqamətində çox böyük işlər həyata keçirilir.

Üzüm bağlarının salınmasından məhsulun istehsalına qədər olan proseslərdə əməliyyatların tam mexanikləşdirilməsi, yeni texnologiyaların tətbiqinə önəm verilir.

*Təcrübi hissə*

*Tədqiqat obyekti və metodikası*

*Tədqiqat obyekti:*

Üzüm bağları, bağların yerləşməsi, dirəklərin bastırılması, sinkli məftilin bərkidilməsi. Üzüm kollarının məftillə əlaqələndirilməsi, traktor və aqreqatlar, alaq otları.

Tədqiqatın metodikası: İşin yerinə yetirilməsi zamanı tədqiqatları əhatə edən metodika işlənmişdir.

*Tədqiqatın məqsədi.*

Məqsəd üzüm bağlarının məhsuldarlığının daha da yüksıldilməsi üçün üzüm kolunun müdafiə zonasında hər iki tərəfdə 50 sm məsafə ümumilikdə 100 sm zolaqlarda alaq otlarını daha yeni texniki üsulla və ya herbisid çiləyən tərtibatın köməkliyi ilə məhv etməkdir.

Əgər Azərbaycan 2023-cü ildə üzüm əkmələrinin sahəsi 7,7 min ha idisə, 2023-cü ildə statik məlumata əsasən 15 min ha olmuşdur, ondan bar verən yaşda 14232 ha, ümumi yığım 224512 ton məhsuldarlıq 113,3 sen/ha olmuşdur. Son 20 ildə əkin sahəsi, məhsuldarlıq 2-dəfə, məhsul yığımı 3,5 dəfə artırılmışdır [1].

Respublikamızın 13 iqtisadi rayonu üzüm istehsalı ilə məşğul olur. 2023-cü ilin statistikasına əsasən onlar içərisində əkinlərin sahəsi daha çox olan 4 iqtisadi rayon göstərilmişdir.

1. Dağlıq Şirvan iqtisadi rayonu 3159 ha
2. Qazax-Tovuz iqtisadi rayonu 2451 ha
3. Gəncə-Daşkəsən iqtisadi rayonu 1829 ha
4. Lənkəran-Astara iqtisadi rayonu 1580 ha

*Məhsul istehsalı*

1. Qazax-Tovuz iqtisadi rayonu 76877,4 ton
2. Dağlıq Şirvan iqtisadi rayonu 34591,2 ton
3. Lənkəran-Astara iqtisadi rayonu 24162,3 ton
4. Gəncə-Daşkəsən iqtisadi rayonu 16375,2 ton

*Məhsuldarlıq*

1. Qazax-Tovuz iqtisadi rayonu 224,7 sen/ ha
2. Lənkəran-Astara iqtisadi rayonu 124 sen/ ha
3. Dağlıq Şirvan iqtisadi rayonu 102 sen/ ha
4. Gəncə-Daşkəsən iqtisadi rayonu 86,4 sen/ha

Buradan aydın olur ki, ən çox sahəsi olan Dağlıq Şirvan iqtisadi rayonudur. 3159 ha, məhsul istehsalı ən çox olan Qazax-Tovuz iqtisadi rayonudur. 76877,4 ton, məhsuldarlığı daha çox olan Qazax-Tovuz iqtisadi rayonudur, 224,7 sen/ ha [1].

Bağlarda cərgələr arası məsafə 2, 2.25, 2.5 m son vaxtlar texnikadan daha səmərəli istifadə etmək üçün 3m götürülür.

Tənəklər arası məsafə isə 1.5 m salınır. Tənək bağlarının məftillər 2-2.5 mm diametrində olan cinkli qatışıqdan istifadə edilir [3].

Üzümlükdə istifadə edilən dirəklər əsasən ağacdan, poladdan, betondan, dəmir betondan və digər möhkəm materiallardan hazırlanır. Dirəklərin uzunluğu 2-2.5 m götürülür.

Cərgənin hər başında və sonunda bir baş dirək, aralarda isə 5-6 m-dən bir orta dirəklər bastırılır. Baş dirəklərin daha möhkəm olması üçün cərgənin başında və sonunda basdırılır. Onlardan bir m sonra 60-70 sm dərinlikdə çala qazılır, çalaya yastı uzun daş qoyulur. 3-5 mm qalınlıqda sinqlı məftillə dolanaraq torpağın səthinə çıxarılaraq ilgək saxlanılır. Baş dirəyin orta hissəsindən 0,9 m-dən və 1,8 m-dən ilgəklə birləşdirilir. Bu sahədə çəkilən məftillər

tarımlığın saxlanmasını təmin edir [3]. Yaxud tarımlığı təmin etmək üçün köməkçi dayaq dirəklər basdırılır.

Dayaqları bir-biri ilə əlaqələndirən və tənək bağlanacaq məftillər torpaq iqlim şəraitindən asılı olacaq 4-5 cərgə nəzərdə tutulur. Birinci məftil 30-60 sm-də, ikinci məftil 50sm, üçüncü məftil 40 sm, dördüncü məftil 30 sm aralı çəkilərək dayaq dirəkləri ilə əlaqələndirilir [3].

Şəmkir rayonunun "Şərq Ulduzu" özəl şirkəti tərəfindən yaradılmış üzüm bağlarının vəziyyəti və mövcud olan nöqsanların aradan qaldırılması istiqamətdə araşdırmalar apararaq mexanikləşdirilmiş işləri həyata keçirməklə məhsuldarlığın yüksəldilməsini qarşımıza məqsəd qoymuşuq.

Özəl şirkət Şəmkir rayonunun girişində mərkəzi yolun iki kənarında yol boyu düzən sahəni əhatə edir. Bu bağlarda görülən bütün əməliyyatları tam mexanikləşdirilmiş formada həyata keçirmək mümkündür. Sahənin yaxınlığında yığılan məhsulun qəbul edəcək zavod fəaliyyət göstərir.

"Şərq Ulduzu" özəl şirkətində apardığımız araşdırmalar (şəkil 1) göstərir ki, şirkətin nəzdində 40 ha üzüm bağları vardır. Bağ müasir tələbata cavab verəcək formada salınmışdır. Hər il bu bağlarda daha yeni təkmilləşmə işləri həyata keçirilir (şəkil 2).




Şəkil 1. "Şərq Ulduzu" özəl şirkətinin üzüm bağı



Şəkil 2. Üzüm bağlarının sahəsi

Bağlarda cərgə arası 3 m, (şəkil 2) bitki arası məsafə 1.5 m olması texnikadan daha səmərəli istifadə etməyə əsas verir [3]. Qeyd etmək lazımdır ki, araşdırmalar zamanı uzum bağlarında bitkilərin arasında kolların yerləşdiyi sahədə becərmə işləri aparılmadığından üzüm kolu lazımı məhsuldarlığı vermir. Bu isə çoxlu məhsul itkisinə səbəb olur. Becərilməyən sahədə üzüm kolları arasında alaq otları böyük problem yaradır (şəkil 3, 4).



Şəkil 3. Bağda cərgə arasının ölçülməsi



Şəkil 4. Üzüm kollarının becərilməyən sahəsi

Şəkildə göründüyü kimi, belə bağlarda texnikadan daha səmərəli istifadə etmək olar.

Bağlarda texnikadan daha səmərəli istifadə etmək üçün yeni becərilmə texnologiyasının işlənməsi nəzərdə tutulur. Üzüm kollarının becərilməmiş qalan müdafiə zonasında hər iki tərəfdən 50 sm məsafə qalır.

Gəncə Avtomobil Zavodunun istehsal etdiyi MT3 markalı traktorlar uğurla "Şərq Ulduzu" şirkətinin üzüm bağlarında geniş istifadə edilir (şəkil 5).



Şəkil 5. Üzüm bağlarının becərilməsi



Şəkil 6. Üzüm bağının damcı üsulu ilə suvarılması

Bağlarda bitkilərin suvarılması damcı üsulu ilə həyata keçirilir. Bu bitkilərin su ilə tam təmin edilməsinin eyni zamanda su itkilərin olmamasına nail olunur (şəkil 6).

Biz becərilməmiş sahədə üzüm koluna zərər vurmadan, kolun ətrafının yumşaldılmasına və alaq otlarının tamamilə götürülməsi [2] istiqamətdə işlər aparırıq. Araşdırmalar zamanı müəyyən nəticələr əldə etmişik ki, üzüm kolunun ətrafında olan bir metrlik zonada mexaniki becərməni keyfiyyətli həyata keçirmək olmur. Belə ki, becərmə zamanı kolun gövdəsində aqreqatın təsirindən müəyyən zədələnmələr baş verir ki, bu da bitkinin gələcəkdə məhsul itkisinə səbəb olur. Üzümlükdə cərgələr arasında becərmə işləri traktora qoşulmuş aqreqatlar ilə aparılaraq yumşaltma və alaq otlarına qarşı kultivasiya işləri yerinə yetirilir. Nəticədə cərgə arası lazımı formaya salınır. Amma bitkilər arasında kultivasiya işləri kifayət qədər düzgün aparılmadığından alaq otları tamamilə məhv edilmir. Becərmə, yumşaltma tam aparılmır. Təmizlənməyən alaq otları bağlarda böyük problemlər yaradır. Məhsuldarlığa təsir edir, istehsalın azalmasına səbəb olur. Bizim məqsədimiz üzüm bağlarında texnikadan səmərəli istifadə edərək [2]. yeni işçi orqanları tətbiq etməklə alaq otlarının cərgə arasından tam təmizlənməsinə nail olmaqdır (şəkil 7).



Şəkil 7. Üzüm kollarının becərilməyən sahəsində yeni işçi orqanının analizi

Bundan əlavə üzüm kolu arasında becərilmə zamanı iki tərəfli zolağa herbisid çiləməklə alaq otlarının məhv edilməsinə də nail olmaq olar. Qeyd etmək lazımdır ki, təsərrüfatda herbisidin zolaqlara verilməsi üçün çiləyicinin olmaması çətinliklər yaradır. Müxtəlif formada çiləyicilərin olmasına baxmayaraq üzüm kolunun becərilməyən zolağına bizi qane edən çiləyici yoxdur. Onun hazırlanmasına istiqamətdə işlər yerinə yetiririk.

*Nəticələr*

1. Şəmkir rayonunun "Şərq Ulduzu" şirkətinin üzüm bağlarında kollar arası müdafiə zonasında olan alaq otlarını iki üsulla məhv edilməsi planlaşdırılır mexaniki və herbisidin verilməsi.
2. Üzüm bağlarında kollar arası müdafiə zonasına herbisid verən yeni çiləyicinin hazırlanmasına və kultivasiya işləri üçün işçi orqanların becərmə texnologiyasının təkmilləşdirilməsi istiqamətdə işlər gücləndirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Kənd Təsərrüfatı (statistik məcmuə). Bakı-2024, 697 s.
2. Аббасов З.М., Аскери М. и др. Способ обработки междурядий многолетних насаждений А.С.№1727529 Б.И. №15 Москва, 1992.
3. Abbasova S., Ələkbərova M. Üzümçülük (laboratoriya praktikum). Müəllif nəşriyyatı, Bakı, 2017, 282 s.
4. aqrarpress.az https:// aqrarpress.az/2019/07/03

УДК 634.634.8.631.3

*З.М.Аббасов, Дж.А.Мамедов, М.Х.Джафаров, Р.Г.Алиева*
*Азербайджанский Государственный Аграрный Университет, г. Гянджа*
*Министерства Сельского Хозяйства АР*

СОСТОЯНИЕ ПРОИЗВОДСТВА ВИНОГРАДА В АЗЕРБАЙДЖАНЕ: РЕЗУЛЬТАТЫ ИССЛЕДОВАНИЙ, ПРОВЕДЕННЫХ НА ВИНОГРАДНИКАХ КОМПАНИИ «ШАРГ УЛДУЗУ» ШАМКИРСКОГО РАЙОНА

*РЕЗЮМЕ*

*Ключевые слова:* сады, материалы, тракторы, столбы, цинковая проволока, виноградники, оборудование, производительность, рабочие органы, сорняки

В статье дается сравнительный анализ посевных площадей, урожайности и продуктивности виноградников в различных экономических районах Азербайджана за последние годы по сравнению с 2003 годом, а также прирост их урожая и продуктивности за 20 лет.

Среди экономических районов выделены 4 экономических района с самой высокой посевной площадью, урожайностью и продуктивностью.

В статье рассматривается использование более удобной техники с учетом ширины используемой в садах тракторов, используемых столбов из разных материалов, их посадки, расстояния между ними, обеспечения тугости, использования цинковой проволоки, количества и размеров расстояний в зависимости от высоты растения.

В статье рассматривается состояние виноградников, созданных частной компанией «Шарг Улдузу» в Шамкирском районе, эксплуатация техники,

используемой при возделывании сада, а также методы исследования и устранения причин, влияющих на повышение продуктивности садов. Приводятся сведения о видах мероприятий по борьбе с сорняками.

UDC 634.634.8.631.3

*Z.M.Abbasov, J.A.Mammadov, M.H.Jafarov, R.G.Aliyeva*
*Azerbaijan State Agrarian University, Ganja*
*Ministry of Agriculture of the Republic of Azerbaijan*

THE STATE OF GRAPE PRODUCTION IN AZERBAIJAN: RESULTS OF RESEARCH CONDUCTED IN THE VINEYARDS OF THE "SHARQ ULDUZU" COMPANY IN SHAMKIR REGION

*SUMMARY*

*Key words***:** gardens, materials, tractors, poles, zinc wire, vineyards, equipment, productivity, working organs, weeds

The article provides a comparative analysis of the acreage, production, and productivity of vineyards in different economic regions of Azerbaijan in recent years compared to 2003, as well as the increase in their harvest and productivity over the past 20 years.

Among the economic regions, 4 economic regions with the highest cultivated areas, crop production, and productivity are shown.

The article shows the use of more convenient tractors, taking into account the width of the equipment used in the gardens, the poles made of different materials to be used, their pressing, spacing, ensuring tillability, the use of zinc wires, the number of distances depending on the height of the plant, and the dimensions of their distances.

The article discusses the condition of the vineyards created by the "Sharq Ulduzu" private company in Shamkir region, the operation of the equipment used in the cultivation of the garden, and the methods of investigating and eliminating the causes affecting the increase in the productivity of the gardens. Information is provided on the types of weed control measures.

***Daxil oldu: 14.07.2025-ci il***